Sənan İbrahimov – 60

# YUMORİSTİK SƏHNƏLƏR



***Hörmətli Sənan müəllim, 1959-cu ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olmusunuz və bu rayondan başlayan həyat yollarınız Sizi dünyanın haralarına aparmamışdır: 1977-1979-cu illərdə Sankt-Peterburqa hərbi xidmətə, elə burada da aviasiya məktəbinə, 1980-1985-ci illər Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə, 1985-1987-ci illərdə Əfqanıstanda hərbi tərcüməçi-müşavir, 1988-ci ildən yenidən Bakıya qaytarıb Bakı Dövlət Universitetində işləməyə başlamışsınız və indiyədək həmin universitetdə çalışırsınız.***

***Elm yolunuz da BDU-dan başlayıb: 1992-ci ildə namizədlik və 2018-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişsiniz, 1995-2014-cü illər 0,5 ştat Elmlər Akademiyası Z.Bünyadov adına Şərqşünaslıq institutunda baş elmi işçi olmuşsunuz. İlk dəfə Azərbaycan Şərqşünaslığında orta əsrlər İran, Əfqanıstan və Tacikistan ədəbiyyat tarixini yazmışsınız.***

## *Sənan İbrahimovun yaradıcılığından nümunələr:*

– Professor Balaş, niyə Allah direktorumuzu cəzalandırmır. O axı milli maraqlarımıza zidd qərarlar qəbul edir. Dövləti maraqlarımızı kənara atıb, şəxsi marağı üçün nə istəyir, edir. Hətta özü üçün əxlaqsız qadınlar saxlayır. Onların istəyi ilə riyakar vəzifə təyinatları edir. Milli maraqlarımıza zidd olan qərarlar qəbul edir. Niyə allah onu cəzalandırmır.

– Allahın barmağı yoxdur ki, adamın gözünə soxsun. Sən get, onu ifşa et. Övladım, qədim Şərq fəlsəfəsinə görə Allah bizim duyğularımızda yaşayır. Doğru qərarlar verəndə ilahi duyğularımıza arxalanırıq, pis qərar verəndə şeytani duyğularımıza. Sən gedib barmağını basıb onun gözünü çıxarsan, deməli Allahın iradəsini yerinə yetirmisən.

– Mən axı qorxuram. Məni işdən qovar. Qoy Allahın özü etsin.

– Onda məlumdur, sən necə bəndəlik edirsənsə, o da sənə elə Allahlıq edir. Sən içindəki Allaha yox, şeytana xidmət edirsən, ədaləti isə Allahdan istəyirsən. Belə olmur.

– Dünyanın işinə bax e... Hər şeyi mən edəcəyəmsə... barmağı Allahın adından... gözünə soxum... hər şeyi Allah verib... Professor, nəsə alınmır?

– Elə də olmalıdır, onda direktordan Allaha şikayət etmə. El məsəlidir: arıq sürünün axsaq çobanı olar.

– O nə deməkdir?

– Yəni ağası gülüm olanın, başına külüm olar... Sən hər şeyin səbəbini də, nəticəsini də, həllini də özündə axtar. – deyib, gedir.

– Əşi bu professorların dilini başa düşmək olmur. Çox qəliz danışırlar. ...Xoşuma gəlmədi, bu lap ara vuranın biriymiş. Get barmağını sox... Yox mənlik deyil! Əcəlim gəlib bəyəm? Direktordur, əlinin üstündə əl yox. Qılıncının dalı da, qabağı da kəsir. Yox, mənlik deyil, bu arının yuvasına barmaq soxmaq...

* * *

Elmi-pedaqoji iclas:

- Kimin bu il dərsliyi çıxıb?
- Təkcə professor Balaşın.
- Kim bu il beynəlxalq elmi konfransda olub?
- Təkcə professor Balaş!
- Kimin bu il məqaləsi beynəlxalq jurnallarda dəc edilib?

-Təkcə professor Balaşın.

- Çox yaxşı. Bu ay əmək haqqına əlavə var. Siyahıda hamının adı var, ancaq deyiblər bir nəfər artıqdır. Kimin adını siyahıdan çıxaraq?
- Professor Balaşı!
- Təklif gəlib. Budur rəhbərlik bir nəfərin bazaya göndərilməsini xahiş edir. Orada yabanı otları yolmaq lazımdır. Kimi bu işə təklif edirsiniz?
- Professor Balaşı.
- Bu gün zibil qutularında tullantılar çoxdur. Bir nəfər gedib xadimələrə kömək etməlidir. Kimi təklif edirsiniz?
- Professor Balaşı!

* * *

- Həkim olar?
- Buyur.
- Həkim, deyəsən məndə anomaliya halları var.
- Necə bəyəm?
- Mən heç vaxt xəstələnmirəm. Dərman nədir bilmirəm. Ancaq dostum həkimlə evlənib, həmişə xəstələnir. Evində də müxtəlif dərmanlar.. nələr...
- Subaysan?
- Bəli.
- Həkim tayfasına evlən onda səndə olan bu anomaliya aradan qalxacaq.

* * *

- Mən göz həkimiyəm, adım da qapıya yazılıb: Gözəlov Gözəl. Sən get, qulaq həkiminin yanına. Eşidirsənmi? Qulaq həkiminin. Onun familiyası Qulamovdur, adı Qulaqburdudur. Nə qədər qışqırmaq olar?!
- Həkim qışqırmayın, artıq çatdı. Mən qulaq həkimin yanına getməliyəm. Adı Qulaqburdudur. Siz göz həkimisiniz, adınız Güzəlov Gözəldir. Getdim, sağ olun. (gedir)
- (başqası daxil olur) Salam.
- Salam, əgər gözlərinizdən şikayətiniz varsa bura, qulaqlarınızdırsa...
- Gözlərimdən, əlbəttə. Bir baxardınız.
- Əyləş baxım, nə işlə məşğul olursunuz, peşəniz nədir?
- Sizdən nə gizlədim, mənim peşəm dəqiqlik tələb edir. Biz sapyorların səhv etməyə ixtiyarı olmadığı kimi, bizim səhvimizlə günahsız insan həyatını itirə bilər. Mən gərək hədəfi dəqiq görəm. Ancaq gözlərim zəifləyib. Adamları bir-birindən ayıra bilmirəm. Xüsusilə də bu həkimləri. Hamısı ağ xalatdadır. Bilmirsən hədəfi düz seçmişsən, ya səhv.

İndi mən sizin gözlərinizi elə yaxşı müalicə edərəm ki, tükü-tükdən seçərsiniz.

- Siz mənim gözlərimi elə bu dəqiqə sağaltsanız, mən sizə min dollar pul verərəm. Elə mənim sifarişim də buradır. Yaxşı da qonorar almışam, on min dollar. Sən mənim gözlərimi elə bu dəqiqə sağaltsan, onun min dollarını sənə verərəm. Elə et ki, mən kitabçamdakı adı da, bax, deyəsən qapıda sizin adınız yazılıb, onu da, oxuya bilim.
- Bu saat, sən bloknotdakı adı da, qapıdakı adımı da oxuyacaqsan. Al bu eynəyi tax.(gözündən çıxarıb verir)
- Əla, görürəm, nə yaxşı görürəm. Hər yeri oxuyuram. Al min dollar. Çox sağ ol. İndi hədəfi dəqiq seçə bilərəm. Kitabçamda kimin adı yazılıb? A, budur, həkim, göz həkimi, Gözəlov Gözəl....
- Bağışlayın, əgər sirr deyilsə, soruşmaq olar, sizin peşəniz nədir?
- Mən killerəm. Sizdən nə gizlədim. Görürəm yaxşı adamsınız. Məni satmazsınız. Budur oxuya bilirəm. Heç kəsə deməyin; mən bu Gözəlov Gözəli indi öldürməliyəm. Kiminsə pulun alıb, gözlərini də sağaltmaq əvəzinə kor edib. O da həkimin ölümünü mənə sifariş verib. Heç kəsə deməyin. Sağ ol, sən əsil həkimsən. (qapını açır) Adınız nədir: Gö..zəl..ov Göz..əl. o nə yaxşı, hədəf də buradaymış. (cibindən tapançanı çıxarır) Tak!...

* * *

Kitab mağazası:

- Bir kitab verin.
- Kimi çox sevirsiniz? Klassiklər: Nizami, Füzuli, Sabir. Müasir ədəbiyyat da maraqlıdır.
- Fərqi yoxdur kitab olsun.
- Onda dünya ədəbiyyatı, yoxsa elmi ədəbiyyat lazımdır. Fizika, kimya – hamısı var.
- Fərqi yoxdur kitab olsun.
- Buyurun, Azərbaycan klassikləri, bunları hamı sevir.

Alıcı kitabı alan kimi vərəqini cırıb tum yuvası düzəldir və tumları tökür və mırtlana-mırtlana deyir: - Müştəriləri də qaçırdın.

* * *

Saqqallı bir qoca başqa bir saqqallıya yaxınlaşır: - Salam, Süleyman.

- Salam. Pirvəli bu sənsən? On il olar görmürəm səni. Axır ki, o dağlardan endin, üzünü gördük. Xınalıqda nə var, nə yox?
- Xınalıqda hər şey yaxşıdır, ancaq eşitdim sizdə hər şey yaxşı deyil.
- Hitlerlə dava etmişsiniz bizə də xəbər eləməmişsiniz. Yaxşı deyil!

* * *

Təyyarədə yanaşı oturmuş cavan qız və cavan oğlan:

- Bağışlayın gözəl qız, siz də təyyarə ilə uçursunuz?
- Bəli, necə bəyəm?
- Əşi söhbətdir eləyirik.

* * *

Kənddən gəlmiş bir yaşlı kişi satıcıya baxıb unitazı göstərir:

- Bağışlayın, bu kişi üçündür, yoxsa qadın üçün?
- Hansı kənddən gəlmisən?
- Daştəpə!
- Unitazın qadını, kişisi olmur, a kəndli.
- Onda niyə şəhərdə qadınlar üçün ayrı, kişilər üçünsə ayrı ayaqyolu tikirsiniz? İşiniz-gücünüz qurtarıb?

* * *

Şəhərə gedən Nəsrəddinə bir neçə cavan yaxınlaşır:

- Molla, eşitmişəm şəhərə gedirsən. Oradan mənə bir papaq alarsan. Pulunu sonra verərəm.
- Molla, mənə də kəmər al, pulunu sonra verərəm.
- Molla, al bu pulları, mənə bir zurna alarsan, istəyirəm toy sifarişləri qəbul edim. Toylarda bala-bala çalım.
- Bala, sən çaldın. Get sifarişini qəbul elə.

* * *

Yeməkxanada yemək yeyən kənd adamı ofisiantdan soruşur:

- Ay bala, bu qədər qab-qacağı ofisiant niyə stola düzdü?
- Bax, dayı, bu kabab, bu dolma, bu salat, bu yumurta, bu su içmək, bu ət yemək, bu plov üçündür....
- Başa düşmədim, bu yeməklərin hamısı, bir yerə gedirsə bu qədər qabqacağı bulaşdırmaq nəyə lazım?!

* * *

Kinokoloq həkim hamilə qadınların şiş qarınlarına baxa-baxa gedir və diaqnoz verir:

- Beş aylıq, hələ tezdir, altı aylıq, sənə də hələ tezdir, səkkiz aylıq, sən yavaş-yavaş hazırlan, aha bu nədir? Əkiz, özü də vaxtı çoxdan keçib. Elə bu dəqiqə əməliyyat stoluna. Tez olun!

Başını qaldıranda qarşısında yekəqarın kişi görür...

* * *

Hamamda birisi avazla oxuyur və bu vaxt otağa başqası girir:

- Gəl hamamın işində, içində və çölündə. Yaz, yay, qış, bahar. İsti-sərin var...
- Bağışlayın, bura hamamdır?
- Xeyir, konservatoriyadır!
- Bağışlayın, onda səhv gəlmişəm. Küçədən keçirdin, eşitdim .....

* * *

Qatarda gedən iki nəfər söhbət edir; birisi birinci yarusda, ikincisi aşağıda:

- Eloğlu, xeyir ola hara belə gedirsiniz?
- Xeyirdir, Rusiya dövlətinə, oğlumun yanına gedirəm. Bəs sən hara gedirsən, eloğlu?
- Mən də Ukraynaya. Qəribədir, eloğlu, gör texnika necə inkişaf edib, qatarın birinci mərtəbəsi Ukraynaya, ikinci mərtəbəsi Rusiyaya gedir!

* * *

Bioloji laboratoriyada iki tələbə heyvanlara baxır. Birdən qurbağa hoppanır:

- Qusik bu nədir belə?
- Baxmayaraq ki, mən də sənin kimi heç vaxt şəhərdən kənara çıxmamışam, ancaq deyə bilərəm ki, bu bülbüldür.
- Yox Qusik, sən yanılırsan, mənə elə gəlir ki, bu qaranquşdur.
- Onda gəl, mərc gəlib professordan soruşaq. Budur gəldi. Professor, bu hoppanıb qaçan quş bülbüldür, yoxsa qaranquş. Mən deyirəm qaranquşdur, Qusik deyir bülbüldür?
- Yox uşaqlar, siz yanılırsınız. Baxmayaraq ki, mən də heç şəhərdən kənara çıxmamışam, ancaq oxumuşam ki, hoppanaraq qaçan quşlar sərçələrdir. Bu quş sərçədir. Sadəcə olaraq tükləri-ni yolublar.

* * *

Müdirin qəbul otağına birisi daxil olub katibəyə deyir:

- Bağışlayın, müdirin qəbuluna yazıla bilərəm?
- Nə məsələdir?
- Yeni vəzifə boşalıb, maaşı da yaxşıdır. Məndən yaxşı namizəd yoxdur.
- Cavan oğlan Zülümov kadr işlərinə fevralın 29-da baxacaq. Hələ o vaxta çox var.
- Təqvimə baxım. Vaxsey, fevralın 29-u iki ildən sonra olacaq.
- Cavan oğlan Zülümov sözü bir dəfə deyir. Özün bilirsən də, Zülümov dedi, qurtardı, o, məşğuldur!

*(Davamı var)*